# Anarla görüş keçirilib









Fevralın 21-i Beynəlxalq Ana Dili Günü münasibətilə Kaspi Ağ Şəhər Liseyində Xalq yazıçısı Anarın yaradıcılığına həsr olunmuş "Ana dilinin keşikçisi" adlı tədbir keçirilib. Tədbirdə Kaspi Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva Anarın yaradıcılığı haqqında geniş çıxış edib, dəyərli yazıçının əsərlərinin yarım əsrdən artıq müddətdə Azərbaycan ədəbiyyatını zənginləşdirdiyini bildirib.

Daha sonra filologiya üzrə fəlsəfə doktoru, "Qobustan" jurnalının baş redaktoru Pərvin Nuraliyeva görkəmli ədibin yaradıcılığı haqqında bilgilərini bölüşüb.

Görüşdə Nigar Rəfilbəylinin "Neyləyim" şeiri əsasında yazılmış "Ala gözlüm", daha sonra "Ümidini itirmə" və "Əlvida" adlı kompozisiyalar səsləndirilib.

Tədbirin davamında liseyin teatr klubunun Anarın yaradıcılığı əsasında hazırladığı "Ötən ilin son gecəsi" adlı əsərinin motivləri əsasında hazıranmış tamaşa izlənilib. Görüş "Şirin dil", "İncə bellim", "Dədə Qorqud və Çoban" mahnı və tamaşaları ilə davam edib.

Sonda Xalq yazıçısı Anar çıxış edərək tədbirin onu çox təsirləndiyini bildirib, liseyin şagirdlərinə gələcək həyatlarında uğurlar diləyib və görüşün təşkilinə görə Sona Vəliyevaya və liseyin əməkdaşlarına öz təşəkkürünü bildirib.